# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# Q Ə R A R I

**Bakı şəhəri** **№ 254/4** **10 sentyabr 2014-cü il**

**2013-cü ilin nəticələri üzrə auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə**

«Azərbaycan Respublikasında Auditor Xidmətinin İnkişaf Konsepsiyası»nın VI fəslinin 16-cı bəndinə və Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2013-cü il 19 dekabr tarixli 248/1 saylı qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar təsdiq edilmiş «Audit sahəsində qabaqcıl təcrübənin öyrənilməsinə dair plan-proqram»ın 4 «Auditorların reytinq səviyyəsinin müəyyən edilməsi» bəndinin icrası ilə əlaqədar, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2012-ci il 17 iyul tarixli 233/1 saylı qərarı ilə təsdiq edilmiş «Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda»ya əsasən tərəfimdən 2013-cü ilin nəticələri üzrə Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi ilə əlaqədar sədrin elmi-metodik məsələlər üzrə sədrin müşaviri N.Talıbovun təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin icrası ilə əlaqədar təsdiq edilmiş «Audit sahəsində qabaqcıl təcrübənin öyrənilməsinə dair plan-proqramın» 4 «Auditorların reytinq səviyyəsinin müəyyən edilməsi» maddəsinə müvafiq olaraq hazırlanmış «Auditorların reytinq cədvəli» təsdiq edilsin (cədvəl əlavə olunur).
2. Palata sədrinin elmi-metodik məsələlər üzrə sədrin muşaviri N.Talıbova tapşırılsın ki, Metodik Komitə (F.Mustafayev), Milli auditə dəstək üzrə Komitə (Z.Hüseynov), İnformasiya və mətbuat üzrə Komitə (E.Əliyev) ilə birlikdə Palata Şurasının iclasında edilmiş təklif və tövsiyələr nəzərə alınmaqla auditorların reytinqlərinin müəyyən edilməsi qaydalarının beynəlxalq təcrübəyə uyğunlaşdırılması ilə bağlı təkliflərini 1 dekabr 2014-cü ilədək təqdim etsin.
3. «Auditorların reytinq cədvəli»nin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**